# İngilis poeziyasına həsr olunmuş musiqili-poetik gecə

**Aprelin 14-də "9 Senses" İncəsənət Mərkəzində ingilis poeziyasına həsr olunmuş musiqili-poeziya gecəsi keçirilib. Tədbirdə ingilis poeziyasının görkəmli nümayəndələrinin şeirləri, habelə rus klassiklərinin - Samuil Marşak, Mixail Lozinski, Modest Çaykovski, Boris Pasternak və b. tərcümələrində ingilis müəlliflərinin şeirləri səsləndirilib. Proqrama Şekspir, Bayron, Kiplinq və ingilis ədəbiyyatının Qızıl dövrünün digər şairlərinin şeirləri daxil olunmuşdur.**



Bu barədə verilən məlumata görə M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucusu, Ədəbi Klubun rəhbəri, Azərbaycan Yazıçılar Birliyinin və Dünya Yazıçılar Təşkilatının (WOW) üzvü Lalə Həsənova ingilis poeziyası haqqında danışaraq gecənin qonaqlarına, iştirakçılarına və "9 Senses" İncəsənət Mərkəzinin direktoru Natalya Jukovaya səmimi qəbula və birgə ədəbi görüşlərin təşkilində dəstəyə görə minnətdarlığını bildirdi.

Tədbirdə Azərbaycan və Rusiya Yazıçılar Birliyinin fəxri üzvü, WOW Koordinasiya Şurasının rəhbəri Eldar Əhədov ingilis poeziyası ilə bağlı məruzə ilə çıxış etdi. M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucuları, "Azərbaycanın müasir şairləri" layihəsinin iştirakçıları Renat İlyazov, Lalə Əliyeva-Klıçkova, Bayram Məhərrəmov, Tamilla Şıxamirova, Olqa Şalayeva, Türkan Bayramzadə, Günatay Hüseynova, Ləman Həsənova, Aytən Həsənzadə, Nell Kyuri, Albert Bloxin, Zülfiyyə Babayeva, Samirə Şıxiyeva ingilis poeziyasından nümunələr səsləndirdilər.

Gecənin musiqili hissəsini Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbəsi Gülzar Hüseynovanın ifası daha da gözəlləşdirdi. SanSara Beynəlxalq Akrobatika, Gimnastika və Rəqs Akademiyasının artistlərinin ifasında ingilis erası üslubunda rəqs nömrəsi xüsusi əhvali-ruhiyyə yaratdı.

Tədbirdə şairlər, yazıçılar, kitabxanaçılar, ziyalılar iştirak etdilər. Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında artıq 7-ci ildir ki, "Yaradıcı oxucular" davamlı xeyriyyə layihəsi uğurla həyata keçirilir.

**M.MUSTAFA,**
**"Respublika".**